

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 159 (24.046)

*24 avqust 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Naxçıvan Muxtar Respublikası bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Bu inkişafın təməlində ötən dövrdə həyata keçirilən tədbirlər xüsusi rol oynamış, iqtisadiyyat şaxələndirilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, səmərəli məşğulluq təmin edilməklə əhalinin maddi rifah halı yaxşılaşdırılmış, ümumilikdə, bütün sahələrin dinamik inkişafı təmin edilmişdir.*

## Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasında taxılçılıq üstün mövqeyə malikdir





Muxtar respublikada sosial-iqtisadi tərəqqi baxımından qazanılan çoxsaylı uğurlar sırasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, bunun nəticəsində isə ixrac imkanlarının artırılması, xüsusilə qeyd olunmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən bu sahədə görülən mühüm tədbirlər kənd təsərrüfatının, xüsusilə strateji sahə olan taxılçılığın inkişafına geniş imkanlar açmışdır. Görülən işlərin nəticəsidir ki, 2021-ci ildə muxtar respublikanın taxıl zəmilərindən 103 min 372 ton məhsul tədarük edilmişdir. Cari ilin məhsulu üçün isə ötən ilin payızında və bu ilin yazında muxtar respublika üzrə 33 min 466 hektar sahədə taxıl əkini aparılmış, zəmilərdən 107 min 418 ton məhsul toplanmışdır.

İyulun 7-də Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muxtar respublikada ərzaq təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verib. Muxtar respublikada əsas kənd təsərrüfatı məhsullarına olan tələbat tamamilə, taxıla olan tələbat isə, əsasən, yerli istehsal hesabına ödənilir… Bu gün o ölkələr problem yaşayırlar ki, orada ərzaq və enerji təhlükəsizliyi, sabitlik təmin edilməyib. Lakin ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi, muxtar respublikada da ərzaq və enerji təhlükəsizliyi təmin olunub. Qarşıda duran əsas vəzifə muxtar respublikada strateji məhsul olan taxıl istehsalını artırmaqdır".***

Dünya əhalisinin sayının getdikcə artması, ərzağa olan tələbatın çoxalması, buna paralel olaraq əkin sahələrinin azalması, qlobal iqlim böhranı, suvarma suyuna olan tələbatın durmadan yüksəlməsi, su ehtiyatlarının tükənməsi təhlükəsi və sair amillər dünyada ərzaq təhlükəsizliyi məsələsini bir daha ön plana çıxarıb. Həmçinin dünyada baş verən ictimai-siyasi proseslər də ölkələrin ərzaq təhlükəsizliyi, xüsusilə taxıla olan tələbatına öz mənfi təsirini göstərməkdədir. Cari ilin aprel ayında Kəngərli rayonunun Böyükdüz kəndində istifadəyə verilən yeni nasos stansiyasının açılış mərasimində Ali Məclisin Sədri demişdir: ***"Ölkəmizdə, eyni zamanda muxtar respublikada kənd təsərrüfatı sahəsində mühüm işlər görülür. Torpaqların icarəyə verilməsi və əkin dövriyyəsinə qatılması, yeni suvarma sistemlərinin qurulması vacib məsələdir. Ölkəmizdə bu istiqamətdə xüsusi layihələr həyata keçirilir. Çünki torpaqların əkilməsi bol məhsul istehsalına, yeni iş yerlərinin yaradılmasına və idxaldan asılılığın azaldılmasına xidmət edir. Bu gün dünyada gedən proseslərə nəzər saldıqda görürük ki, ölkələr bir-birinə təzyiq vasitəsi kimi ərzaq və enerji sahələrindən istifadə edir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında hər iki sahədə görülən işlərin nəticəsidir ki, həm ərzaq məhsulları və enerji ilə etibarlı təminat həyata keçirilir, həm də bu sahələr üzrə ixrac imkanları yaranır".***

Muxtar respublikada ərzaq təhlükəsizliyinə nail olunması bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində mümkün olub. Ötən əsrin 90-cı illərində torpaqların əsl sahiblərinə qaytarılmasından başlanan proses sonrakı illərdə meliorativ tədbirlərin həyata keçirilməsinə, daha geniş ərazilərin əkin dövriyyəsinə qatılmasına, məhsuldar toxum sortlarının alınaraq gətirilməsinə, nəticədə, daha çox məhsul istehsalına imkan verib. Aqrar sahədə atılan bütün bu addımlar strateji kənd təsərrüfatı məhsullarının istehsalına da öz təsirini göstərib. Nəticədə, məhsul bolluğu ixrac potensialını yaradıb, əhalinin özünüməşğulluğu təmin edilib. Muxtar respublikanın ərzaq təhlükəsizliyində mühüm rol oynayan taxıl istehsalı da bu strateji yanaşmadan öz bəhrəsini alıb. Ali Məclis Sədrinin ***"Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi tədbirləri sırasında taxıl istehsalı xüsusi yer tutur. Taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır, bu sahəyə dövlət dəstəyi ilbəil artırılır… Həmçinin daxili bazarın qorunması, texnika və toxum təminatı, mütərəqqi suvarma şəbəkələrinin qurulması, subsidiyaların və gübrələrin verilməsi taxılçılıqla məşğul olanlar üçün geniş imkanlar açmışdır"*** sözləri muxtar respublikada taxılçılığın inkişafına göstərilən qayğının ifadəsini göstərir.

Göründüyü kimi, diyarımızda bütün strateji sahələr kimi, ərzaq təhlükəsizliyi məsələsi də ötən dövr ərzində diqqətdə saxlanılıb, bunun üçün kompleks işlər həyata keçirilib. Artıq əminliklə deyə bilirik ki, dünyanın hər bir ölkəsi üçün iki mühüm sahə olan ərzaq və enerji təhlükəsizliyi məsələsi muxtar respublikada öz həllini çoxdan tapıb. Taxılçılıqla bağlı qarşıya qoyulan məqsədə də ən qısa zamanda nail olunacağını görülən işlərlə birlikdə demək mümkündür.

Son olaraq onu qeyd edək ki, bu gün muxtar respublikamızda ərzaq təhlükəsizliyi, xüsusilə taxılçılığın inkişafı ilə bağlı görülən işlər mühüm potensialın yaradılmasının göstəricisidir. Bu potensial isə qlobal təhdidlərə ən yaxşı cavab, əhalinin ərzaq təhlükəsizliyinin ən yüksək səviyyədə təminatıdır.

**Anar QASIMOV**

## Kompleks quruculuq işləri aparılır



*Son illər həyata keçirilən abadlıq və quruculuq işləri hesabına Culfa rayonu tamamilə görkəmini dəyişib, abad yaşayış məntəqələrindən birinə çevrilib. Bu il də rayonda geniş quruculuq işləri aparılır, yeni inzibati binalar və sosial obyektlərin tikintisi davam etdirilir.*





Yeni quruculuq ünvanlarından biri də Culfa Rayon İcra Hakimiyyəti üçün tikilən inzibati binadır. Binanın tikintisinə ötən ilin sonlarından başlanılıb. Rayon mərkəzində ulu öndərimizin adını daşıyan prospektdə inşa edilən yeni bina zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olacaq.

Digər bir bina isə rayonda baytarlıq qurumlarının iş şəraitinin yaxşılaşdırılması məqsədilə rayon Baytarlıq İdarəsi üçün inşa olunur. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq. Binanın zirzəmisində arxiv, iş otaqları, süni mayalanma avadanlıqlarının və dərmanların saxlanc otaqları, yeməkxana və qazanxana yerləşəcək. Birinci mərtəbədə iş otaqları, laboratoriya, patoloji materialların qəbulu otağı, bakteriologiya və serologiya, süni mayalanma şöbələri, ikinci mərtəbədə isə iş otaqları, baytar həkim, süni mayalanma texniki, epizootik həkim və sahə baytar məntəqəsi üçün otaqlar olacaqdır.

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsi kimi əhalinin rifahının və kommunal-məişət şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılır, yaşayış məntəqələrində yeni içməli su sistemləri qurulur. Bu tədbirlərin davamı kimi Culfa rayonunun ən böyük yaşayış məntəqəsi olan Yaycı kəndini içməli su ilə təmin etmək üçün ötən ilin avqust ayından başlanılan içməli su şəbəkəsinin qurulması layihəsi üzrə işlər uğurla davam etdirilir. Qeyd edək ki, rayonda əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına, rifah halının yüksəldilməsinə də xüsusi diqqət göstərilir. Hazırda rayon mərkəzindəki Təbriz küçəsində yerləşən 45 mənzilli yaşayış binasında əsaslı yenidənqurma işləri davam etdirilir.

Muxtar respublikamızda həyata keçirilən abadlıq və quruculuq tədbirlərinin böyük bir hissəsini də şəhərdaxili yolların əsaslı şəkildə yenidən qurulması və təmiri təşkil edir. Bütün bölgələrdə olduğu kimi, Culfa rayonunda da yol infrastrukturunun yenilənməsi istiqamətində görülən işlər şəhər və kəndlərimizin abadlığına, eləcə də insanların rahatlığına xidmət edir. Bu ilin iyun ayından başlanan şəhərdaxili yollardakı quruculuq işləri hazırda rayon mərkəzinin Təbriz, Şəhidlər, Məhərrəm Əsgəroğlu və Xətai küçələrində davam etdirilir. Daha bir quruculuq tədbiri isə Bayraq Meydanının yenidən qurulmasıdır. Culfa-Ordubad magistral yolunun sağ tərəfində, Culfa şəhərinin girişində yerləşən Bayraq Meydanının ümumi sahəsi 20 min kvadratmetrdən çoxdur. Bayrağın ümumi hündürlüyü isə 40 metr olacaq.

**Alim AĞAYEV**

*Bu gün vergilər sahəsində şəffaflığa yol açan ən mühüm amillərdən biri də vergi potensialının yerlərə getmədən müəyyən edilməsidir ki, bu da, öz növbəsində, keçirilən kameral vergi yoxlamalarına diqqətin daha da artırılması və səmərəliliyin yüksəldilməsi zərurətini ortaya çıxarır. Cari ilin 7 ayında Naxçıvan Şəhər Vergilər İdarəsi tərəfindən 694 vergiödəyicisində kameral vergi yoxlamaları aparılıb. Bunun da nəticəsində 150 min 552 manat əlavə vəsait hesablanıb.*

## Vergi nəzarəti tədbirləri iqtisadi inkişafa töhfələr verir

Nağdsız ödəmələrin səviyyəsinin artırılması və nağd əməliyyatların minimuma endirilməsi vergi orqanlarının qarşısında duran əsas vəzifə olmaqla, həm də vətəndaşların rahatlığına xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq edilib. Proqramda nəzərdə tutulan tədbirlərin icrası muxtar respublikada rəqəmsal ödəniş xidmətləri sahəsində fəaliyyət imkanlarının ilbəil daha da təkmilləşməsinə yol açır. Bu istiqamətdə həyata keçirilən əsas işlərdən biri POS-terminalların quraşdırılmasıdır. Ümumilikdə, 1 iyul 2022-ci il tarixədək Naxçıvan şəhərində 769 POS-terminal quraşdırılıb ki, bunun da 53-ü cari ilin ilk 6 ayının payına düşür. Həmçinin POS-terminallardan istifadə vəziyyətinin nəzarətdə saxlanılması məqsədilə mütəmadi monitorinqlər keçirilib. Nəticədə, POS-terminallar üzrə nağdsız dövriyyənin həcmi cari ilin 6 ayında 16 milyon 768 min 37 manat olub. Bu, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 490 min 466 manat çoxdur.

Vergitutma bazasının genişləndirilməsi, vergidənyayınma hallarının qarşısının alınması vergi orqanlarının qarşısında qoyulmuş mühüm, həllivacib vəzifədir. Naxçıvan Şəhər Vergilər İdarəsi tərəfindən bu sahə daim diqqət mərkəzində saxlanılır və bir sıra məqsədyönlü işlər həyata keçirilir. 2022-ci ildə bu istiqamətdə aparılan araşdırmalar, eləcə də maarifləndirmə işlərinin görülməsi nəticəsində öz əmlaklarını icarəyə verən şəxslər tərəfindən əldə etdikləri gəlirlərə görə ödəməli olduqları vergilərdə artımlara nail olunub. Belə ki, bu ilin 6 ayında 1818 fiziki şəxs tərəfindən 145 min 161 manat icarə haqqından vergi daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 55 min 465 manat çoxdur. Bundan başqa, idarə tərəfindən hesabat dövründə vergiödəyicilərini maarifləndirmə, məlumatlandırma sahəsində qəzetlərdə məqalələr dərc olunub, 299 nəfərə elektron xidmət göstərilib, 813 nəfərə asan imza verilib.

**Xəbərlər şöbəsi**

“Sənaye ili” – 2022

# İqtisadi inkişafda yüngül sənayenin də böyük payı vardır

## *Ailə birliyinin bəhrəsi, sənəti yaşadan məkan – “Zümrüd Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyəti*

*Ata-babalarımızın həyat məktəbinin enişli-yoxuşlu yollarında çoxlu imtahanlarla üzləşərək söylədiyi “Birlik harada, dirilik orada”, “El bir olsa, dağ oynadar yerindən”, “Tək əldən səs çıxmaz” və digər ibrətamiz sözlərdə təlqin olunduğu, dastanlarımızda, nağıllarımızda xalqımıza xas məziyyətlərdən sayılan birlik-bərabərlik nümunəsi günümüzdə də öz müfəssəl təcəllası ilə insanlarımızı firavan həyata qovuşdurur, dövlətimizi qüdrətə, yenilməzliyə aparır. Təməli kiçik dövlət sayılan ailədə qoyulan bu insani keyfiyyətin bariz ifadəsini indi diyarımızda formalaşan yüzlərlə ailə təsərrüfatının, ailə biznesinin, sahibkarlıq subyektlərinin timsalında da aydın şəkildə görə bilərik. Bu yazımız da məhz dövlət dəstəyinə arxalanıb, ailə birliyindən, bərabərliyindən ilhamlanıb, sözün həqiqi mənasında, təməldən başlayaraq bir igidin ömrü qədər inkişaf yolu keçən, çiyinlərində qədim el sənətimiz olan dərziliyi yaşatmaq amalını uğurla daşıyan, “Sənaye ili”nə töhfələr verən “Zümrüd Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyəti barədədir...*

Arxası dağ olanın başı göylərə ucalar, – deyiblər. Məhz “Zümrüd Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyətinin keçdiyi inkişaf yoluna nəzər saldıqda, müəssisənin rəhbəri ***Mehrəngiz Əkbərova*** ilə söhbətimizdə də aydın oldu ki, ailə biznesi bugünkü tərəqqiyə arxalarında dağ kimi vüqarla dayanan qüdrətli dövlətimizin sayəsində qovuşublar. Mehrəngiz xanım bildirdi ki, ömür-gün yoldaşım Etibar Hacıyev 1997-ci ildə Ali Məclis Sədrinin təşəbbüsü, BMT-nin inkişaf proqramı əsasında kiçik bir tikiş müəssisəsi açmağa müvəffəq oldu. Adını isə həm övladımızı, həm də işin gələcəyini düşünüb mənası “parlaq, işıqlı” olan “Zümrüd” qoymağı qərara aldıq. Müəssisə 10 il müddətində Naxçıvan şəhərinin Atatürk küçəsindəki binanın iki otağında fəaliyyət göstərdi. 2000-ci ildə çalışdığım musiqi məktəbindən təqaüdə çıxdım və geyim məsələlərində qadın zövqünü, qadın təfəkkürünü nəzərə alıb qərara gəldim ki, mən də həyat yoldaşıma müəssisənin fəaliyyətində, idarəçiliyində yaxından köməklik edim. Beləcə, “Güc birlikdədir, tək əldən səs çıxmaz”, – deyib əl-ələ verərək çalışmağa başladıq. Necə deyərlər, ayağım da düşərli oldu. Belə ki, Ali Məclis Sədrinin tapşırığına əsasən 2000-ci ildən muxtar respublikanın məktəblərində vahid məktəbli forması tətbiq olunmağa başladı və həmin formanın hazırlanması bizim müəssisəyə tapşırıldı. Bu məqamda pedaqoji təcrübəmə əsaslanıb bir faktı qeyd etməyi özümə borc bilirəm ki, muxtar respublika rəhbərinin zamanı qabaqlayan həmin mütərəqqi addımı, yəni vahid məktəbli formasının tətbiqi həm də təhsilin inkişafına təkan verdi. Beləliklə, əvvəllər şagirdlər arasında mövcud olan ayrı-seçkilik halları aradan qaldırıldı, uşaqların diqqətləri tamamilə dərslərə yönəldildi. Bununla həm də valideynlərin üzərinə düşən maddi yük xeyli azaldıldı.

Mehrəngiz Əkbərova dedi ki, müəssisə fəaliyyət göstərdiyi ilk vaxtlarda həm yer, həm də avadanlıqlar baxımından imkanlar elə də geniş, ürəkaçan səviyyədə deyildi. Lakin gələcəklə bağlı ürəyimizdə inam, ümid çırağı hər ötən gün daha da gur yanmağa başlayırdı. Çünki o çırağı şöləndirən dövlətimizin diqqəti, qayğısı idi. Ali Məclis Sədrinin hər dəfə biz sahibkarlarla görüşündə söylədiyi fikirlər, verdiyi dəyərli tövsiyə və tapşırıqlar işimizə böyük stimul bəxş edir, qəlbimizdə gələcəyə etibar, inam hissi yaradırdı. Və nəhayət, çoxdan gözlədiyimiz məqam yetişdi. 2009-cu ildə Sahibkarlığın İnkişafı Fondun-







dan 560 min manat güzəştli kredit götürərək müasir layihə əsasında İdris Məmmədov küçəsində 3 mərtəbədən ibarət yeni bina inşa etdirməyə nail olduq. Binanın birinci mərtəbəsində satış mağazası, geyim, kompüterlə ölçü və biçim, iş otaqları, ikinci mərtəbəsində isə geniş istehsal sahəsi və ütü otağı yaradıldı. Almaniya, Avstriya, Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqlarını alıb müəssisəmizdə quraşdırdıq, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarəti təmin etdik. Beləliklə, 2011-ci ildən etibarən müasir şəraitdə yeni binada yeni əhvali-ruhiyyə ilə daha da şövqlə çalışmağa başladıq. İş imkanlarımız xeyli genişləndiyi üçün işçilərin də sayı artdı. Kiçik müəssisəni böyüdərək, daha da təkmilləşdirərək “Zümrüd Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyətini formalaşdırdıq. 1997-ci ildə 6 nəfərlə fəaliyyətə başlayan müəssisədə 2011-ci ildən artıq 30 işçi çalışmağa başladı ki, bu da əhalinin məşğulluğunun artırılmasına cəmiyyət adından kiçik töhfə oldu...

2011-ci ildə müasir texnikadan istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanmasına da xüsusi diqqət yetirdik, bunun üçün Türkiyə Respublikasından təcrübəli mütəxəssislər müəssisəyə cəlb olundu, eyni zamanda işçilərin 1 ay müddətində Türkiyədə ixtisasartırma kurslarında iştirakına şərait yaradıldı. İşçilərin əməyin mühafizəsi qaydalarına əməl etmələri, maddi-mənəvi təminatı da müəssisə tərəfindən daim diqqətdə saxlanılır, onlar iş geyimi, yeməklə təmin olunurlar. Təqdirəlayiq haldır ki, müəssisə əməkdaşları “Hamı bir nəfər, bir nəfər hamı üçün” prinsipi ilə, sağlam rəqabət ruhunda çalışırlar. Təbii ki, belə də olmalıdır. Çünki uğura gedən yol məhz birlikdən-bərabərlikdən keçir, inkişafa başqa cür nail olmaq mümkün deyil. Şükürlər olsun ki, zəhmətimiz bəhrəsiz qalmır, sifarişlərimiz də günü-gündən çoxalır, muxtar respublikamızda fəaliyyət göstərən bir sıra dövlət təşkilatlarının, hüquq-mühafizə orqanlarının geyim formalarını hazırlamağı üzərimizə götürmüşük. Eyni zamanda 2018-ci ildə artan tələbatı nəzərə alıb Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində “Zümrüd Tikiş” Məhdud Məsuliyyətli Cəmiyyətini də yaratmışıq ki, orada məktəblilər və dövlət təşkilatı əməkdaşları üçün köynək istehsalı həyata keçiririk. Əsas qayəmiz kəmiyyətdən çox keyfiyyətə önəm vermək, işimizin öhdəsindən layiqincə gəlməyə çalışmaqdır. Məşhur bir kəlamda deyildiyi kimi, övlad ailənin güzgüsüdür, o, valideynlərdən nə görür, onu da götürür. Bu mənada, seviririk ki, bizim böyük zəhmət hesabına qurduğumuz bu işin davamçısı yetişir. Psixologiya sahəsi üzrə ali təhsil alan övladımız Zümrüdün bu sahəyə hədsiz marağı, həvəsi bizi qürurlandırır, məqsədimiz onu bu yöndə püxtələşdirməkdir...

Ümummilli liderimiz Heydər Əliyev milli kimliyimizə bağlılığı, keçmişimizi, tariximizi yaşatmağı, dəyərlərimizə sadiqliyi hər kəsin, xüsusilə də gənclərin qarşısında ən ümdə vəzifə hesab edərək deyirdi ki, xalq gərək daim öz kökünü xatırlasın. Təqdiredicidir ki, “Zümrüd Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətində müasirlik, yenilik nə qədər öz parlaqlığını göstərsə də, ulu öndərimizin bu kəlamındakı fikirlərin müsbət təzahürünü sezməmək mümkün deyil. Belə ki, burada çalışanlar muxtar respublikamızın müxtəlif təşkilatlarının əməkdaşlarını, insanları müasir zövqə uyğun geyim formaları ilə təmin etməklə yanaşı, həm də qədim el sənətimiz sayılan dərziliyin yaşadılmasına, inkişafına da töhfələr verirlər. İşçilərdən Məryəm Nəcəfova, Xanım Yaqubova və Nəcibə Əliyeva ilə söhbət zamanı sənətin maraqlı nüanslarına toxundular, bu gün bazarda özünə geniş yer alan keyfiyyətsiz geyimlər barədə tənqidi fikirlərini dilə gətirdilər: – Yaşlı və orta nəslin nümayəndələri də təsdiq edər ki, əvvəllər biz bir paltarı iki-üç il geyinərdik. Təəssüf ki, indi, əsasən, geyimin formasına üstünlük verilir, keyfiyyət mühüm amil kimi diqqətdən kənarda qalıb. Tədris ili öncəsi olduğu üçün valideynlərə üzümüzü tutub deyirik ki, övladlarına məktəbli forması seçərkən diqqətli olsunlar, keyfiyyətsiz xarici mallara deyil, yerli istehsala üstünlük versələr, maddi vəsaitləri itməz. Həmsöhbətlərim onu da qeyd edir ki, ümumiyyətlə, gərək bu sənətə təkcə qazanc mənbəyi kimi baxmayasan. Ulu babalarımızdan bizə yadigar qalan dərzilik sənətini yaşatmaq hər birimizin borcudur. Dərziliyin maraqlı tərəfləri çoxdur, bədii təxəyyül, yaradıcılıq tələb edən işdir. Bu mənada, əgər hansısa bir paltarı tikirsənsə, onu bir də əvvəlki kimi tikmək çətin gəlir adama. Dərziliyi başqa peşələrdən fərqləndirən cəhət isə bu işdə daim yeniliyin olmasıdır. Dərzi, eyni zamanda öz zövqü ilə sifarişçinin zövqünü uyğunlaşdırmağı bacarmalıdır. Bizim əsas işimiz müştəri məmnuniyyətini qazanmaqdır. Gərək hər işdə halallıq olsun. Halallıq olmayan yerdə qazancın da bərəkəti olmaz.

Əmək insanı ucaldır, aliləşdirir, hörmət, mərifət məqamına yetişdirir. Antik dövrdən günümüzədək bəşəriyyətin keçdiyi tərəqqi yoluna nəzər salsaq, görərik ki, insanlar öz zəhmətləri ilə hansı mərtəbəyə qalxıb, nələrə qadir olublar. Tibbin, texnikanın, təhsilin bugünkü səviyyəyə gəlib çatması bəşər övladının əməyinin bəhrəsi kimi ən yüksək dəyərə malikdir. Təbii ki, istənilən sahədə, istiqamətdə zəhmətinin itməməsi, hədər getməməsi, layiqli qiymətini alması insanı daha da həvəslə çalışmağa, gələcəyə nikbin nəzərlə baxmağa sövq edir. Bu baxımdan “Zümrüd Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyətini qurub-yaradan ailə də özünü xoşbəxt hesab edir. Çünki həm Etibar Hacıyevin, həm də Mehrəngiz Əkbərovanın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, bir sıra uğur nominasiyaları üzrə qalib olan, diplomlar qazanan hər iki ömür-gün yoldaşı 2017 və 2019-cu illərdə “Tərəqqi” medalına da layiq görülüblər. Əldə etdikləri bu nailiyyəti isə dövlətimizin yaratdığı əlverişli imkanların məntiqi nəticəsi, işinin öhdəsindən bacarıqla gələn bütün müəssisə əməkdaşlarının uğuru kimi dəyərləndirib, muxtar respublika iqtisadiyyatına, “Sənaye ili”nə daha böyük töhfələr vermək naminə bundan sonra da əzmlə çalışacaqlarını bildirdilər.

*Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, biz sahibkarlığın inkişafına dövlət siyasətimiz kimi baxırıq. Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq. Ulu öndərin ideyaları üzərində inamla irəliləyən muxtar respublikamızda bu gün sahibkarlığın inkişafı dövlət siyasətinin əsas prioriteti kimi daim diqqətdə saxlanılır, sahibkarlarla mütəmadi görüşlər keçirilir, onların təklifləri dinlənilir, fəaliyyət istiqamətləri üzrə lazımi köməkliklər göstərilir. Müəssisələr də öz üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmək, diyarımızın sosial-iqtisadi mənzərəsinin daha da müfəssəl şəkildə formalaşması üçün var qüvvəsilə çalışırlar. Elə “Zümrüd Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyəti kimi...*

**Nail ƏSGƏROV**

---

*Ailə təsərrüfatlarımız*

# Yerli ərzaq məhsullarının istehsalına dövlət qayğısı yeni uğurlara yol açır

*Muxtar respublikamızda sahibkarlara göstərilən diqqət və qayğı onlara fəaliyyət imkanlarını genişləndirməkdə, daxili bazara daha çox töhfə verməkdə böyük imkanlar yaradır. Xüsusilə özəl sektorun dəstəklənməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublika sahibkarları ilə mütəmadi görüşləri, onlara verdiyi tapşırıq və tövsiyələr sahibkarların fəaliyyətinin stimullaşdırılmasında əhəmiyyətli rol oynayır.*

Diyarımızda sahibkarlar üçün yaradılan şəraitdən səmərəli istifadə edənlərdən biri də ***Məhərrəm Əliyev***dir. Ailə üzvlərinin əməyi sayəsində hazırlanan məhsullarla daxili bazara töhfəsini verən sahibkarla məşğul olduqları fəaliyyət sahəsi ilə bağlı həmsöhbət olduq. Sahibkar qeyd etdi ki, muxtar respublikada iqtisadiyyatın inkişafı üçün hər cür şərait yaradılıb. Bunun əsasında aqrar sektora, kiçik və orta sahibkarlığa diqqət və qayğı dayanır: – Mən də dövlət qayğısından bəhrələnmişəm. Belə ki, illərdir, kiçik biznes sahəsi ilə məşğulam. Lakin fəaliyyətimizdə bir az dəyişiklik etmək istədik. Bilirsiniz ki, muxtar respublikamızda ailə təsərrüfat-



larının fəaliyyəti üçün geniş imkanlar yaradılıb. Kreditlərin verilməsi, onların lazımi avadanlıqlardan istifadəsinə geniş imkanlar yaradılması, yarmarka və biznes görüşlərində iştiraklarının təmin edilməsi və digər bu kimi imkanlar bizdə də bu sahəyə maraq yaratdı. Həmçinin kiçik ailə təsərrüfatlarının böyüyüb gələcəkdə sahibkarlıq obyektinə çevrilməsi, rəqabətqabiliyyətli məhsullar istehsal etməsi də danılmaz faktdır. Eyni zamanda bu təsərrüfatlar muxtar respublikamızda özəl sektorda məhsul istehsalının artımını da sürətləndirir. Bütün bunlar bizə də böyük stimul verdi. Bu il Sahibkarlığın İnkişafı Fondundan 15 min manat güzəştli kredit götürərək Babək rayonunun Hacıvar kəndində müəssisəmizi qurduq, hazırda Naxçıvan şəhərində fəaliyyətimizi davam etdiririk. Müəssisəmiz “Ailə təsərrüfatı” adlanır. Bu adın seçilməsi təsadüfi deyil. Müəssisədə beş nəfər ailə üzvümüzlə birgə çalışırıq. Əməksevərlik və ailə birliyimiz əsasında fəaliyyətimiz artan istiqamətdə davam edir. Müəssisəmizdə qatıq, ayran, şor, pendir, dovğa, bir sözlə, müxtəlif çeşiddə ağartı məhsulları istehsal edirik. Bu məhsullar “Ailə təsərrüfatı” adı ilə də satışa çıxarılır. Qeyd edim ki, müəssisəmiz mövcud qanunvericiliyə əsasən uyğunluq sertifikatı ilə təmin olunub. Naxçıvan şəhərindəki dükanlara, bazarlara məhsullarımızın satışını təmin edirik. Məhsullarımızın keyfiyyətliliyi alıcıları da razı salır.

Müsahibim nə üçün məhz ağartı məhsullarının istehsalı ilə məşğul olduqlarına da aydınlıq gətirir. Qeyd edir ki, bir səbəbi daxili bazarda bu sahəyə tələbatın çoxluğu ilə bağlıdırsa, digər bir səbəbi isə ağartı məhsullarının sağlamlıq cəhətdən faydalı olmasıdır. Naxçıvanımızın təmiz havası, saf suları ta əzəldən burada heyvandarlığa marağı artırmaqdadır. Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı isə həm bazarın tələbatının ödənilməsində, həm də əhalinin yerli ərzaq məhsullarına olan ehtiyacının təmin olunmasında mühüm rol oynayır. Biz də bu kimi mühüm amilləri nəzərə aldıq, fəaliyyətimizi də bu istiqamətdə uğurla davam etdiririk. Qədim diyarımızda sahibkarlara yaradılan şəraitə görə dövlətimizə minnətdarıq.

*Muxtar respublikamızda ildən-ilə ailə təsərrüfatlarının sayı artmaqda davam edir. Bunun əsas səbəblərindən biri bu sahənin inkişafına, eyni zamanda istehsal olunan məhsulların satışına dövlət qayğısının göstərilməsidir. “Sənaye ili”ndə də ailə təsərrüfatlarının daxili bazara töhfəsi danılmazdır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

Dövlət proqramı icra olunur

# Turizm sektorunun inkişafı diqqət mərkəzindədir

*Ölkəmizdə müasir dövrün ən mühüm sosial-iqtisadi inkişaf istiqamətlərindən birini turizm sektoru təşkil edir. Bu sahənin inkişafı, öz növbəsində, bir sıra istehsal sahələrinin davamlı fəaliyyətinin təmin olunmasında, eləcə də əhalinin məşğulluğunun və gəlirlilik səviyyəsinin artırılmasında xüsusi rol oynayır.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müasir dünyada turizm sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür".*** Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı xüsusi diqqətdə saxlanılır və bu istiqamətdə həyata keçirilən irimiqyaslı layihələr qədim diyarımızın turist cəlbediciliyini gündən-günə artırır. Mövcud təbii ehtiyatlardan səmərəli istifadə etməklə yeni turizm məhsullarının ərsəyə gətirilməsi muxtar respublikada bu sektorun inkişafı üçün yeni imkanlar açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın əsas məqsədlərindən biri muxtar respublikanın turizm potensialından tam istifadə olunmasını təmin etməkdir.

Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası 2022-ci ilin birinci yarım ilində də davam etdirilmiş, Sahibkarlığın İnkişafı Fondu tərəfindən Culfa rayonunun Ləkətağ kəndində turizm sahəsinin yaradılması üçün bir fiziki şəxsə 40 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Birinci yarım ildə adıçəkilən ərazidə kənd turizm sahəsinin, eləcə də Ordubad rayonunun Anaqut kəndində "Xan Çinar" İstirahət Mərkəzinin yaradılması başa çatdırılmışdır. Həmçinin bu dövrdə Ordubad şəhərində qədim Cümə məscidinin bərpası və Culfa rayonunda Darıdağ Arsenli Su Müalicəxanasının tikintisi davam etdirilmişdir. Görülən işlər muxtar respublikanın cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına öz töhfəsini verəcəkdir.

Muxtar respublikaya turistlərin cəlb edilməsinə müsbət təsir göstərən amillərdən biri reklam-informasiya fəaliyyətidir. Mövcud turizm imkanlarının genişmiqyaslı təbliği turistlərin məlumatlılığının artırılmasına xidmət edir. Proqramda bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası məqsədilə birinci yarım ildə Naxçıvan Turizm İnformasiya Mərkəzi və Turizm Departamentinin sosial şəbəkə hesablarına muxtar respublika üzrə turizmlə bağlı, ümumilikdə, 322 məlumat daxil edilmiş, 115 mindən çox baxış sayı qeydə alınmışdır. Həmçinin bu dövrdə muxtar respublikanın quş müşahidəçiliyi ilə bağlı turizm potensialını əks etdirən məlumat və fotoşəkillərin nadir quşların çoxluq təşkil etdiyi ərazilərin nümayiş etdirildiyi *www.birdingplaces.eu* saytına, Duzdağ Fizioterapiya Mərkəzi haqqında məlumatların isə "Wego" onlayn turizm platformasına yerləşdirilməsi təmin edilmişdir.

Turizmin inkişafında yerli dəyərlərin uğurlu təbliğinin əhəmiyyəti nəzərə alınaraq Dövlət proqramında Novruz bayramı tədbirlərinin hazırlanması və təbliği ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Bu məqsədlə 19-28 mart tarixlərdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, eləcə də muxtar respublikanın rayon mərkəzlərində bayram konsertləri, yarmarkalar və ictimai iaşə xidməti təşkil olunmuşdur. Bayram tədbirləri ilə bağlı məlumatlar Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet saytına Azərbaycan, rus və ingilis dillərində daxil edilmiş, həmçinin mərkəzin sosial şəbəkə hesablarına yerləşdirilmişdir.






Turistlərin məlumatlılığının artırılması və turizm potensialının təbliğində medianın rolu da xüsusi qeyd edilməlidir. Çoxsaylı izləyici kütləsinə malik olan media nümayəndələrinin öz şəxsi hesabları və təmsil etdikləri mətbuat orqanları vasitəsilə apardıqları turizm təbliğatı istənilən bölgədə bu sahənin inkişafı üçün mühüm rol oynayır. Qeyd edilənlər nəzərə alınaraq cari ilin 21-24 iyun tarixlərdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu və Turizm Assosiasiyaları, eləcə də Azərbaycan-Türkiyə-İran media nümayəndələrinin iştirakı ilə "Nuh diyarı-Naxçıvan" infoturu təşkil olunmuşdur. İnfoturun məqsədi Naxçıvanın zəngin turizm potensialını təqdim etməklə yanaşı, Azərbaycan, Türkiyə və İran arasında turizm və media sahəsində qarşılıqlı əməkdaşlığın inkişafına köməklik göstərməkdən ibarət olmuşdur. İnfotur çərçivəsində qonaqların muxtar respublikanın tarixi, mədəniyyəti, təbiəti və müasir turizm infrastrukturu ilə yaxından tanışlığı təmin edilmişdir.

Bütün bunlarla yanaşı, cari ilin ilk yarısında muxtar respublikanın turizm imkanlarının beynəlxalq əhəmiyyətli tədbirlərdə nümayişi də turistlərin marağını bu qədim diyara cəlb etmək məqsədi daşımışdır. Belə ki, bu dövrdə İsrailin Təl-Əviv, Qazaxıstanın Almatı və Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərlərində keçirilən beynəlxalq turizm sərgilərində Naxçıvan Muxtar Respublikası Turizm Departamenti əməkdaşlarının iştirakı təmin olunmuşdur. Həmin sərgilərdə muxtar respublikanın turizm potensialı ilə bağlı videoçarxlar, bukletlər və kitablar, eləcə də yerli istehsal məhsullarından olan Naxçıvan duzu və mineral sular nümayiş etdirilmişdir.






Turizm sektorunun müasir dövrün tələblərinə uyğun qurulmasına təsir göstərən amillərdən biri də bu sahədə fəaliyyət göstərən müəssisələrin təcrübəli və ixtisaslı kadrlarla təmin edilməsidir. Birinci yarım ildə proqramın icrasına uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən peşə təhsili müəssisələrinə "Turizm sahəsində biznesin təşkili", "Turizmin təşkili", "Ekskursiya rəhbəri" və "Bələdçilik" adlı elektron dərs vəsaitlərinin təqdim olunması müdavimlərə praktik səriştələrin aşılanması ilə yanaşı, onların nəzəri biliklərinin də artırılmasına xidmət etmişdir.

Turistlərin məmnunluq səviyyəsinin artırılması və onlara daha yaxşı xidmətin göstərilməsi üçün peşə təhsilinin dəstəklənməsi ilə yanaşı, turizm sektorunda çalışanlar üçün vaxtaşırı seminarların təşkili də xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə turizm sektorunun nümayəndələri üçün martın 10-da "Beynəlxalq sərgilərin turizmdə rolu", iyunun 13-də "Turizm haqqında yeni qanunun tələbləri, İnzibati Xətalar Məcəlləsində dəyişikliklər və cərimələr", eləcə də turizm sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri üçün aprelin 27-də "AZS 906:2022 dövlət standartının tələbləri" mövzularında seminarlar təşkil olunmuşdur. Bundan əlavə, mayın 26-da yerli və xarici turoperatorlar üçün "Muxtar respublikanın turizm potensialının yaxın coğrafiyada tanıdılması" mövzusunda vebinar keçirilmişdir.

*Dövlət proqramının icrası muxtar respublikada turizm sektorunun və infrastrukturunun inkişafı üçün əlverişli mühitin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təmin edir.*

**"Şərq qapısı"**

Gəncliyimiz, gələcəyimiz

# Gələcəyimiz elm yolunda qətiyyət göstərən gənclərimizdən asılıdır

*Bu gün ölkəmizdə, eləcə də doğma Naxçıvanımızın bütün sahələrində gənclərin formalaşması, bilik və bacarıqlarının üzə çıxarılması, onların sağlam dünyagörüşünün aşılanması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, artıq cəmiyyətimizdə ideal gənclik qüvvəsi formalaşıb. Onların bu və ya digər sahələrdə əldə etdikləri uğurları yalnız paytaxt şəhərimizin timsalında yox, ucqar kənd və qəsəbələrimizdə də aydın şəkildə görürük. Bu şəraitdən layiqincə bəhrələnənlər sırasında Babək rayonunun istedadlı gəncləri də az deyil. Məlumat üçün bildirək ki, 2021-2022-ci tədris ilində keçirilən qəbul imtahanlarının yekun nəticəsində Babək rayonu üzrə 48 abituriyent 500-700 bal intervalında nəticə göstərib. Həmin gənclərimizdən bir neçəsi ilə biz də həmsöhbət olduq.*

İlk həmsöhbətimiz Babək şəhər 1 nömrəli tam orta məktəbin məzunu ***Onur Bayramov***dur. Onur deyir ki, həyatda uğur qazanmaq bəzilərinin düşündüyü qədər şans, fürsət məsələsi deyil. Yüksək nəticə qazanmaq, bu yolda yorulmadan cəhd göstərmək mənim üçün də asan olmadı. Düşünürəm ki, qarşısına ali təhsil almağı məqsəd qoyan hər bir şagird elə ibtidai sinfə qədəm qoyduğu andan dərslərində fəal olmalıdır. Məktəbdə təhsil aldığı müddətdə əldə etdiyi biliklər ali məktəblərə qəbul imtahanlarında və təbii ki, ondan sonra da əlindən tutacaq. Bəzi şagirdlər düşünürlər ki, biliklərə dərindən yiyələnmək üçün qəbul imtahanlarına bir neçə il qalmış başlamaq lazımdır. Çox zaman da bunun nəticələri heç də arzuedilən kimi olmur. Çünki 11 illik bir proqramın ağırlığını qısa müddətdə mənimsəmək mümkün deyil. Mən aşağı siniflərdə oxuduğum illərdən dərslərimə sistemli şəkildə çalışırdım. Nəticədə, I ixtisas qrupu üzrə 640 bal toplayıb, rayon üzrə ikinci olmuşam. İxtisas seçimimdə isə Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları sahəsini seçəcəyəm. Bu ali təhsil ocağında oxumaq arzum təsadüfi deyil. Naxçıvan Dövlət Universiteti ilə yaxından tanış olmuşam, təhsil şəraiti barədə geniş məlumat əldə etmişəm və təhsil ocağı heç də dünya səviyyəli elm-təhsil müəssisələrindən geridə qalmır. İnanıram ki, gələcəyin savadlı, bilikli gənci kimi Vətənimə layiqli şəxsiyyət olacağam. Son olaraq bu nəticəni qazanmağımda mənə daim dəstək göstərən müəllimlərimə, valideynlərimə öz minnətdarlığımı bildirirəm.



Növbəti müsahibimiz Yarımca kənd tam orta məktəbinin məzunu ***Nərmin Quliyeva***dır. 624 bal nəticə göstərməklə ailəsi və valideynlərinin etimadını doğruldan Nərminin dediklərindən:



– Lap kiçik yaşlarımdan dəqiq fənlərə və təbiət elmlərinə böyük marağım olduğu üçün məktəb illərində riyaziyyat və fizika fənləri üzrə olimpiadalarda iştirak etmiş, dəfələrlə qalib olmuşam. Elə bu səbəbə görə həm müəllimlərim, həm də valideynlərim qəbul imtahanında məndən yüksək nəticə gözləyirdilər. Topladığım nəticə qarşıma I ixtisas qrupuna aid olan bir çox sahələrin qapısını açsa da, mən peşələrin ən gözəli olan müəllimlik ixtisasını seçəcəyəm. Hər bir gənc kimi mənim də məqsədim təhsilimi uğurla başa vurduqdan sonra Vətənimin savadlı müəllimləri ilə çiyin-çiyinə çalışmaqdır. Bundan sonra da səy göstərib məqsədlərimin hamısına çatacağam. Ali təhsilimi isə Naxçıvan Dövlət Universitetində davam etdirəcəyəm. Düşünürəm ki, inamın güclü olduğu yerdə insan bütün arzularını reallaşdıra bilər. Təki qətiyyətlə addımlamağı bacarasan. Bu yolda bütün şagirdlərə uğurlar arzu edirəm.

Yarımca kənd tam orta məktəbinin bir digər yetirməsi ***Səltənət Nəsirli*** də öz fikirlərini bizimlə bölüşdü: – Hələ aşağı siniflərdə oxuduğum illərdən hüquqşünas olmağı qarşıma məqsəd qoymuşam. Bu yolda yorulmadan çalışır, səy göstərir, bir çox oyunlarda, intellektual yarışlarda iştirak edir və yaxşı nəticə qazanmağa çalışırdım. Seçdiyim III ixtisas qrupuna aid olan fənlər bir qədər dəqiqlik tələb edir. Topladığım 584 bal nəticəyə uyğun olaraq seçimimdə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını seçəcəyəm. İnanıram ki, gələcəyin savadlı gənci kimi dövlətimə, xalqıma layiqincə xidmət edəcəyəm. Görkəmli hüquqşünas və siyasətçi Əlimərdan bəy Topçubaşovun da dediyi kimi: "Qəlbdəki yeganə amalımız iqbalı millətdi, yeganə nöqteyi-mətlub istiqlali millətdi".



Növbəti müsahiblərimiz Cəhri qəsəbə 2 nömrəli tam orta məktəbin məzunları ***Şəlalə və Lalə Quliyeva*** bacıları da rayonun yüksək nəticə göstərən məzunları kimi öz təəssüratlarını bizimlə bölüşdülər. Şəlalə Quliyeva deyir ki, həyatda nə olur-sa-olsun, qarşıya qoyduğun məqsədin ardınca inamla, səbirlə getməlisən. Heç bir səbəb səni yormamalıdır. İstər universitet üçün çalışdığın mərhələ olsun, istərsə də ondan sonrakı dövrlərdə qarşılaşdığın uğursuzluqlar səni həvəsdən salmamalıdır. Düşdüyün çətinlikdən əzmlə qalxdığın anda xoşbəxtliklərlə dolu gələcək gözəl günlər səni gözləyir. Lalə Quliyeva isə söhbətimizə belə davam edir:– Bütün gənclərimizə, ən başda da hələ orta məktəbdə təhsil alan şagirdlərimizə bu yolu qət etmiş məzunlar kimi tövsiyəmiz odur ki, dərslərinə böyük diqqətlə yanaşsınlar, oxusunlar, öyrənsinlər. Bir günlərini belə yeni nə isə oxumadan, öyrənmədən keçirməsinlər. Təbii ki, elmlə, dərslə yanaşı, istirahət və asudə vaxtın səmərəli təşkili də lazımdır. Lakin unutmasınlar ki, irəlidə onları, valideynlərinin ümid dolu arzuları və müəllimlərinin onlara olan sonsuz inamı dayanıb. Bilsinlər ki, sonrakı peşmançılıq heç zaman fayda verməz. Biz, yəni bacım və mən ali məktəbə qəbul olmaq üçün qətiyyətlə çalışdıq. Hətta imtahanın birinci mərhələsində 604 bal toplamaqla hər ikimiz eyni nəticəni əldə etmişdik. İkinci mərhələdə mən 610 bal, bacım Şəlalə isə 615 bal topladı. İkimiz də təhsilimizi Naxçıvan Dövlət Universitetində davam etdirməyi düşünürük. Hədəfimizə çatdığımız, valideynlərimizin, müəllimlərimizin əziyyətinin hədər getmədiyi üçün çox xoşbəxtik.





*Bu çətin yolda daim çalışmaq, zəhmət çəkmək gələcək xoş günlərin ən gözəl təminatçısıdır. Görüşdüyümüz, uğurları ilə yaxından tanış olduğumuz gənclərimizə həyatın keşməkeşli yollarında müvəffəqiyyətlər arzulayırıq.*

**Məcid RƏŞADƏTOĞLU**

***Adətən, başqalarına arzu-diləklərimizi çatdıranda, hər şeydən əvvəl, cansağlığı arzulayırıq. Çünki cansağlığı insan həyatı üçün ən vacib nemət sayılır. Bir insan nə qədər bacarıqlı və kamil olursa-olsun, səhhəti imkan vermədikdə o, səmərəli fəaliyyətdən kənarda qalacaq, iş qabiliyyətini itirəcəkdir. Buna görə də ölkəmizdə insan amilinə qayğının ön planında əhalinin sağlamlığının təmin olunması dayanır. Bu səbəbdəndir ki, illər ötdükcə səhiyyə infrastrukturu daha da inkişaf etdirilir, müasirləşir.***

*Səhiyyə*

# Sağlam həyat tərzi sürmək öz əlimizdədir

Bu mənada, deyə bilərəm ki, ölkəmizdə bərqərar olunmuş sürətli sosial-iqtisadi inkişaf muxtar respublikada da səhiyyənin inkişafını təmin edib. Müstəqillik illərindən başlayaraq yüzlərlə yeni tibb ocaqları tikilib istifadəyə verilib, mövcud səhiyyə müəssisələrinin təmiri, yenidən qurulması və müasir avadanlıqlarla təchiz olunması prosesi geniş vüsət alıb. Bu gün artıq muxtar respublikanın ən ucqar kəndində belə müasir səhiyyə ocağı fəaliyyət göstərir, tibbi personal ən müasir tibbi avadanlıqlarla 24 saat sakinlərin sağlamlığının keşiyini çəkir.

Səmimi etiraf etməliyəm ki, uşaqlıq illərimi keçirdiyim Ordubad rayonunun Bist kəndində nə zamansa müasir səhiyyə ocağının tikiləcəyi və hətta kəndə ən müasir fizioterapiya avadanlıqlarının gətirilib quraşdırılacağı deyilsəydi, inanmazdım. Çünki o zamanlar nəinki xəstəxana tikmək, kəndin yolları ilə gediş-gəliş belə gözümüzün önündə bir çətinlik yaradırdı. Lakin bu gün mənzərə tamam başqadır. Elə kəndimizdəki müasir şəraiti ilə xəstəxananı xatırladan ambulatoriyada hərtərəfli şərait yaradılıb ki, sakinlər artıq səhhətləri ilə bağlı problemlərini öz kəndində həll edir, uzaq Bist kəndindən rayon mərkəzinə və ya Naxçıvan şəhərinə getmək məcburiyyətində qalmırlar. Burada nəinki müxtəlif müayinə və müalicələr yerinə yetirmək, hətta fizioterapiya ilə müalicənin aparılmasına da şərait yaradılıb. Ali Məclis Sədrinin tapşırığı ilə kənd ambulatoriyasında fizioterapevtik müalicələr üçün avadanlıqlar alınaraq qurulub. İndi, hətta ucqar dağ və sərhəd kəndlərində belə xəstələrin elektroterapiya və ultrasəslə müalicə, ultrayüksəktezlikli cərəyanla, parafinlə, Solyuk lampası ilə müalicə aparatları vardır.









Əziz oxucular, mən əbəs yerə fizioterapevtik müalicəni xüsusi vurğulamadım. Çünki dövlətimiz də müalicənin bu üsulunun tətbiqinə xüsusi önəm verir. Günümüzdə fizioterapiya ən təhlükəsiz müalicə vasitəsi hesab edilir. Müəyyən xəstəliklər vardır ki, onların uzunmüddətli fizioterapevtik və reabilitasiya müalicəsi səmərəli effekt verir. Bu müalicə üsulunun köməyi nəticəsində xəstələri müxtəlif cərrahi əməliyyatlardan xilas etmək də mümkündür.

İndi isə gələk Naxçıvanın ən böyük səhiyyə ocağı olan Naxçıvan Muxtar Respublika Xəstəxanasına. 2015-ci il dekabrın 1-də əsaslı yenidənqurmadan sonra istifadəyə verilən xəstəxana əhalinin sağlamlığının etibarlı təminatına ayrılan diqqət və sərmayənin ən parlaq ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən binada hərtərəfli şərait yaradılıb, ən müasir tibbi və texnoloji yeniliklərə əsaslanan avadanlıqlar quraşdırılıb.

İlk olaraq xəstəxananın Reabilitasiya şöbəsinin imkanlarından söz açmaq istərdim. Bu günlərdə fəaliyyəti ilə tanış olduğumuz Reanimasiya şöbəsində də tibbin ən son yenilikləri tətbiq olunur, müxtəlif vasitələrlə fizioterapevtik müalicələr aparılır. Müalicələrin qısa müddətdə və effektiv yerinə yetirilməsi üçün bütün imkanlar mövcuddur. Nəticədə, insanların sağlamlığı qısa zamanda bərpa olunur, onlar yenidən öz aktiv həyatlarına qovuşurlar.

Burada fizioterapiya, hidroterapiya bölmələri ilə yanaşı, Naftalan nefti ilə müalicə bölməsi də fəaliyyət göstərir. Elə buraya gəlməyimizin məqsədi də dünya tibb elmində analoqu olmayan bu müalicə üsulu ilə yaxından tanış olmaq idi.

Əvvəlcə onu qeyd edim ki, mürəkkəb fiziki-kimyəvi tərkibə malik olan Naftalan nefti sənaye neftindən tamamilə fərqlənir. Bu neftin tərkibinin əsasını təşkil edən yüksəkmolekullu, çoxhalqalı quruluşa malik naften karbohidrogenlər, kükürdlü, azotlu birləşmələr və mikroelementlər onun müalicəvi təsirində əhəmiyyətli rol oynayır. Naftalandan müalicə məqsədilə hələ orta əsrlər dövründən istifadə olunmağa başlanılıb. Onun adına 13-cü əsrdə yaşamış məşhur səyyah Marko Polonun qeydlərində də rast gəlindiyi bildirilir.

Şöbənin əməkdaşı, həkim-fizioterapevt ***İlahə Zeynalova*** bildirdi ki, Naftalan nefti güclü ağrıkəsici, iltihab əleyhinə, damargenişləndirici, allergiya əleyhinə, maddələr mübadiləsini tənzimləyici təsirə malikdir. Müalicəvi tərkib qan dövranına daxil olaraq qan hüceyrələrini və xəstə orqanlarda qan axınını gücləndirir. Onun bu xüsusiyyətləri sümük-əzələ sistemi, periferik sinir, periferik damar, ginekoloji və dəri xəstəlikləri, eləcə də xroniki prostatitlər üzrə 70-dən artıq xəstəliyi müalicə etməyə imkan verir.

Başqa sözlə, neft vannası qəbul edən insanlar oynaq və əzələ ağrılarından, dəri xəstəliklərindən, əsəb pozğunluqlarından xilas olurlar. Elə bu hikmətdəndir ki, hər il dünyanın müxtəlif yerlərindən minlərlə insan Tanrının ölkəmizə bəxş etdiyi bu əvəzolunmaz, möcüzəvi nemətin sorağına düşür, Naftalan şəhərindəki sanatoriyalara üz tuturlar. Xüsusilə yay aylarında buraya ənənəvi olaraq daha çox Rusiya, Polşa, Almaniya, Fransa, İran, Türkiyə, Filippin və başqa ölkələrdən şəfa tapmağa gələnlər var.

Lakin muxtar respublika sakinlərinin belə uzaq məsafəni qət etmək və əlavə xərcə düşmək məcburiyyətindən, necə deyərlər, yaxası qurtarıb. Çünki əhalinin sağlamlığını prioritet istiqamət kimi müəyyənləşdirən dövlətimiz Naftalan neftini bizim ayağımıza gətirib.

Həkim-terapevt İlahə Zeynalova bildirdi ki, şöbəyə müalicəvi neft Naftalan şəhərindən gətirilir. Bölmədə 4 Naftalan nefti ilə müalicə otağı var. Onlardan ikisi qadın, digərləri isə kişi pasiyentlər üçün nəzərdə tutulub. Bu da imkan verir ki, burada gündəlik 30-dan çox xəstə qəbul edilsin. Müalicə müddəti isə xəstəliyin növündən və hansı mərhələdə olmasından asılıdır. Müalicənin effektivliyi də çox yüksəkdir. Hətta bölməyə müraciət edənlərin dili ilə desək, buraya əsa ilə gələnlər evlərinə qayıdarkən əsalarını bir kənara atırlar.

Lakin xəstələr müalicədən öncə mütləq müayinədən keçirilir. Çünki Naftalan nefti bir sıra xəstəliklərdən əziyyət çəkən insanların səhhətinə əks-təsir göstərə bilər. İlk dəfə müraciət edən xəstələrin ümumi sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra vanna qəbuluna cəlb olunur. Müalicə proseduru 10-12 dəfə təşkil edir. İlk vanna qəbulu 8 dəqiqə müddətində tətbiq olunur. Müalicənin sonrakı mərhələlərində bu müddət 15 dəqiqəyədək artırıla bilər. Otaqlarda ən müasir avadanlıqlar quraşdırılıb və kompüter sisteminə inteqrasiya edilib. Belə ki, neftin vannalara doldurulub-boşaldılması, müalicə vaxtının təyin olunması, təzyiq və temperatura nəzarət avtomatik qaydada həyata keçirilir.

Onu da qeyd edək ki, bir seans müddəti bitdikdən sonra xəstələr mütləq duş qəbul edərək 1 saat ərzində həkim nəzarəti altında istirahət etməlidirlər. Odur ki, bölmədə istirahət otağı da yaradılıb. İstirahət otağında həmsöhbət olduğum sakinlər də yaradılan şəraitdən məmnunluqlarını bildirdilər. Niyə də məmnun olmasınlar? Naftalan neftinin möcüzəvi təsiri altında qalan pasiyentlər tezliklə sağlamlığına qovuşurlar. Əvvəllər Naftalan şəhərinə gedən sakinlər indi müalicə məqsədilə bu şəhərə getməyin artıq xərc olduğunu bildirdilər. Çünki xəstəxanada yaradılan şərait onların vaxtında müayinə olunmasına və düzgün diaqnoz qoyulmasına, ən əsası isə möcüzəvi Naftalan nefti ilə təbii müalicəyə təminat verir.

***Sona Abdullayeva*** deyir ki, son illər bel və ayaq oynaqlarındakı ağrılardan şikayət edirdim. Həkimə müraciət etdim, Naftalan nefti ilə müalicəni məsləhət gördü. Sözün açığı, heç burada Naftalan nefti ilə təbii müalicənin olduğunu bilmirdim. Buna görə məyus olmuşdum. Çünki Naftalandakı sanatoriyalara getmək üçün nə zamanım, nə həvəsim var idi. Maddiyyat cəhətdən də o qədər imkanım yox idi. Yoldaşlarımdan bu xəstəxanada belə şəraitin yaradıldığını eşitdikdə çox şad oldum. Dərhal müraciət etdim. Sağ olsunlar, həkimin məsləhəti ilə tibb bacıları bizi çox yaxşı qarşılayıb, müalicəmizi vaxtlı-vaxtında etdilər. Ağrılarım qısa zamanda azaldı. İndi seansın sonlarına yaxınlaşmışam. Çox dəyişiklik hiss edirəm özümdə. Bundan artıq nə olmalıdır ki!? Artıq xərc və zaman sərf etmədən sağlamlığıma qovuşuram. Hətta səhhətimin yaxşılaşmasından sonra xəstəxanaya özüm tək gəlib-gedirəm. Bu şəraiti yaradanlara və bizə göstərilən xidmətə görə hər kəsə minnətdaram.

Şəhərimizin digər bir sakini ***Eldar Haqverdiyev*** ilə söhbət zamanı məlum oldu ki, o, son 2 ildə 4-cü dəfədir ki, buraya üz tutur. Pasiyentin sözlərinə görə, neft vannası ona ağrısız yaşamaq imkanı verir.

*Əziz oxucular, sağlam həyat tərzi sürmək hər bir insanın öz əlindədir. Əsas məsələ xəstəliyin inkişaf etməsini gözləməmək və gecikmədən həkimə müraciət etməkdir. Səhhətinizlə bağlı hər hansı problem olarsa, sağlamlığınızı yerli həkimlərə etibar edə bilərsiniz. Xəstəxanalarımızın müasir maddi-texniki bazası, təcrübəli və peşəkar tibbi kadrlar buna tam zəmanət verir. Elə Naxçıvan Muxtar Respublika Xəstəxanasında olduğu kimi.*

**Gülcamal TAHİROVA**

## Dağ cığırları əsasında piyada marşrutlarının müəyyənləşdirilməsi istiqamətində işlər aparılır

Naxçıvan Muxtar Respublikası Turizm Departamenti tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın 5.1-ci bəndi (Naxçıvan Muxtar Respublikası ərazisinin görməli yerləri üzrə piyada marşrutlarının tərtib edilməsi) və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı 2020-2023-cü illər üçün birgə Tədbirlər Planı"nın ekoturizm bölməsindəki dağ cığırları əsasında piyada marşrutlarının (hiking route) hazırlanması bəndinin icrası istiqamətində işlər davam etdirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Turizm Bürosunun ekoturizm üzrə mütəxəssisi və departamentin əməkdaşı tərəfindən 16 avqust 2022-ci il tarixdən başlayaraq Şahbuz rayonunun Kükü və Keçili kəndləri, Ağbulaq İstirahət Mərkəzi, Gurbulaq, Ballıdüz şəlalələri və Qanlıgöl istiqamətində, Culfa rayonunun İlandağ ətrafında, Ordubad rayonunun Parağaçay, Ağdərə, Tivi və Bist kəndlərində, həmçinin Göygöl və Gəmiqaya ərazilərində dağ cığırlarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi aparılmışdır. 27 avqust 2022-ci il tarixədək isə Şərur rayonunun Şahbulaq kəndi – Sulu dərə, Ordubad rayonunun Nürgüt, Nəsirvaz, Pəzməri kəndləri və Pəzməri şəlaləsi ətrafında dağ cığırlarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi aparılacaq.



Dağ piyada marşrutlarının müəyyən edilərək turizmin dəyər zəncirinə qazandırılması, məhsulun aktiv turizm fəaliyyəti ilə məşğul olmaq istəyən turistlərə təklif edilməsi, ucqar kəndlərdə yaşayan əhalinin turizmə cəlb olunması və turizm fəaliyyətində birbaşa iştirakının təmin edilməsi, turizm gəlirlərindən yerli icmaların birbaşa faydalanması, kənd evlərinin kirayə verilməsi, ailə təsərrüfatı məhsullarının satışının həyata keçirilməsi məqsədi daşıyır.

Yaradılacaq marşrutlar Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin rəqəmsal distribusiya kanallarında, Azərbaycanın turizm təbliğatı üzrə əsas internet səhifəsi olan *"Azerbaijan.travel"*də, beynəlxalq auditoriya üçün sosial platformalar üzərindən *experienceazerbaijan* və *explorenakhchivan*, yerli auditoriya üçün *"Macəra yaxındadır"* daxili turizmin təbliği layihəsi sosial media kanallarında təbliğ ediləcəkdir. Müəyyənləşdirilmiş dağ cığırları marşrutlarının izləri GPS-lə qeydə alınaraq dünyada təbiət yürüşləri həvəskarları arasında məşhur olan "Wikiloc" və "Viewranger" kimi platformalarda yerləşdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin mətbuat xidməti***

## Milli-mənəvi dəyərlər gənclər arasında təbliğ olunur

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə gənclər üçün "Milli-mənəvi dəyərlər: müasirlik və ənənə" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə nazirliyin əməkdaşı Azadə Əliyeva, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, şair Elxan Məmmədov, bölmənin əməkdaşları Səkinə Cümşüdova və Samirə Məmmədova çıxış edərək gənclərin şəxsi inkişafı və dünyagörüşünün formalaşması istiqamətində görülən işlərdən danışıblar, qloballaşma dövründə milli-mənəvi dəyərlərimizin mühafizə olunmasının əhəmiyyətindən bəhs ediblər.

Tədbir diskussiya şəklində davam edib, gəncləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Kərimov Rza Elşən oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Məcid Əkbərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 737**